# Milli gimnastika arenasında Avropa çempionatı başlayıb

## Gənclərdən ibarət Azərbaycan komandası bürünc medal qazanıb







Mayın 17-dən 21-dək Bakıda "Ulduz kimi parla" şüarı ilə keçiriləcək Avropa çempionatında 38 ölkədən 315 gimnast mübarizə aparacaq. İdmançılar ayrı-ayrı alətlər (top, halqa, gürzlər, lent), komanda hesabı və çoxnövçülük proqramında çıxış edəcəklər.

Qrup hərəkətləri üzrə komandalar böyüklər arasında beş halqa, üç lent və iki top, gənclər arasında isə beş ip və beş top proqramında güclərini sınayacaqlar.

Yarışda Azərbaycanı böyüklər arasında fərdi növdə Zöhrə Ağamirova və İlona Zeynalova təmsil edəcəklər.

Qrup hərəkətləri proqramında isə böyüklər arasında xalça üzərinə Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokina çıxacaqlar. Gənclərin yarışında isə Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət qrup komandamız ölkəmizi təmsil edəcək.

Qeyd edək ki, çempionata mayın 21-də yekun vurulacaq. Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, yarış iştirakçıları azarkeşlərə həyəcanlı emosiyalar bəxş edəcəklər. Onlar Hollivud ab-havasında dizayn olunmuş, eyni üslublu dekorasiya elementləri və işıq effektləri ilə tərtib edilmiş zalda sərilmiş qırmızı xalıdan keçərək yarış meydançasına daxil olacaq və peşəkar çıxışları ilə azarkeşlərin qəlbinə yol tapmağa çalışacaqlar.

Çempionatın ən məzəli siması isə şübhəsiz ki, Avropa Gimnastikasının maskotu - Luici adlı meymun olacaq. O, tamaşaçılara və gimnastlara öz zarafatları, maraqlı proqramları ilə təbəssüm və pozitiv əhvali-ruhiyyə bəxş edəcək.

Qeyd edək ki, bu, ölkəmizin bədii gimnastika üzrə təşkil etdiyi beşinci Avropa çempionatı olacaq. Bakı 2007-ci, 2009-cu, 2014-cü və 2019-cu illərdə bu növ üzrə qitə çempionatına evsahibliyi edib. Son məlumata görə, çempionatda mübarizə gənclər arasında beş ip və beş top yarışları ilə başlayıb. Azərbaycanın Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət qrup komandası beş ip yarışlarında 29.450, beş top yarışlarında isə 29.000 xal toplayıblar.

Hər iki hərəkətdə 3-cü yer tutan gənc gimnastlarımız finala yüksəlib. İki hərəkətin cəmində 58.450 xal toplamış Azərbaycan komandası çoxnövçülükdə bürünc medal qazanıb. İsrail komandası Avropa çempionu olub, bolqarıstanlı gimnastlar isə gümüş medala sahiblənibləр.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 18 may.- S.12.